Azərbaycan.- 2021.- 29 aprel. S. 4.

# Kənd yolları abadlaşır



**Son illər Qubada yol infrastrukturu xüsusi diqqət mərkəzindədir. Çünki turizm bölgəsi olan rayonda yolların səliqəli və təmirli olması vacib şərtlərdəndir. Bu baxımdan infrastruktur sahəsində görülən işlər siyahısında yolların abadlaşdırılması ilk yeri tutur.**

Rayonda əsas yollarla yanaşı, kənd və kəndarası yollar da təmir edilir. Belə yollardan biri də Amsarqışlaq kəndinin yoludur. Rayon rəhbərliyinin kənd əhalisi ilə görüşü zamanı Amsarqışlağın yolunun bərbad olduğu vurğulanmışdı. Sovet dönəmindən bəri təmir edilməyən yol kənd əhalisi üçün əməllibaşlı probleme çevrilmişdi.

Amsarqışlaq kəndi Quba-Xaçmaz yolunun üstündə yerləşir. Artıq həmin yoldan kəndə gələn 3,5 kilometrlik yolun bərpasına başlanılıb və qısa vaxt ərzində onun əsaslı təmir edilməsi nəzərdə tutulur. Bununla bərabər, yol kənarı ilə kəndə çəkilmiş işıq və rabitə xətləri də təmir ediləcək. Bəzi ərazilərdə iş adamlarının zəbt etdiyi və qanunsuz hasara aldıqları yolkənarı torpaqlar da, necə deyərlər, "həbs"dən azad olunacaq.

Sonda onu da qeyd edək ki, Amsarqışlaq kəndinin təbiəti çox gözəldir və bu səbəbdən yaşıllıqlar içində olan kənddə parkın salınması da nəzərdə tutulub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***